İyun 2016

# PwC Azerbaijan Times

## 14 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **“Dövlət rüsumu haqqında” Qanunda dəyişikliklər**



## *Miqrasiya məcəlləsinə dəyişikliklər edilmişdir*

10 saylı buraxılışımızda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasında xarici hüquqi və ya fiziki şəxs tərəfindən yaradılmış yerli hüquqi şəxslərin rəhbər və müavinlərinin, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyət sahələri üzrə işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün Azərbaycan vətəndaşları və ya Azərbaycanda təsis edilmiş hüquqi şəxslər tərəfindən dəvət edilmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi kateqoriyaya aid yüksək səviyyəli mütəxəssislərin iş icazəsindən azad olunmaları barədə Milli Məclisdə təklif irəli sürülmüşdür. Həmin təklif qəbul edilmiş və qanun layihəsi qüvvəyə minmişdir.

Bundan əlavə, ayrı bir Fərmanla “mütəxəssislər” və “fəaliyyət sahələri” anlayışlarına aydınlıq gətirilmişdir. Belə ki, “mütəxəssislər” dedikdə, həmin rezident və onun Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında təsis edilmiş hüquqi şəxs olan podratçısı tərəfindən dəvət edilmiş gəmiqayırma sahəsində ali təhsili və ya müvafiq ixtisas üzrə peşə təhsili və bu sahədə ən azı bir il iş təcrübəsi olan mütəxəssislər, “fəaliyyət sahələrə” dedikdə isə, Qaradağ Sənaye Parkının rezidenti və onun Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında təsis edilmiş hüquqi şəxs olan podratçısı tərəfindən həyata keçirilən gəmiqayırma fəaliyyəti nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd olunmuş meyarlar müvəqqəti yaşamaq icazəsini almaq üçün əsas kimi çıxış edə bilərlər.

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

[aysel.suleymanova@az.pwc.com](mailto:aysel.suleymanova@az.pwc.com)

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

[www.pwc.com/az](http://www.pwc.com/az)

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.